

# Şəhidlik zirvəsi

*Salam Əlirza müəllim. Necəsiniz? Bağışlayın sizi narahat edən şairə, yazıçı Günel Muxtarlıdır. Məlumat üçün nəzərinizə çatdırım ki, 1993-cü ildən bu günə kimi Qəşəm İsabəylinin redaktoru olduğu Cih-cih qəzetində, Şərqin səsi, Azərbaycan müəllimi, Ədəbiyyat qəzeti, Vəfa jurnalı, Təhsil qəzeti, Təhsil və zaman qəzetlərində 250-ə qədər şeir, esse, müxtəlif mövzuda məqalələrim dərc olunub. Respublika Təhsil Şurasının mətbu orqanı olan və Professor Əjdər Ağayevin redaktoru olduğu Təhsil və Zaman qəzetində Baxış bucağı rublikasının uzun müddət daimi yazarı olmuşam. 14 elmi məqaləm Azərbaycan məktəbi, ARTPİ-nin elmi əsərləri, APİ-nin Xəbərləri, İqtisadiyyat Universitetinin elmi əsərlərində və eləcə də Ukrayna Respublikasında (2 məqalə rus dilində) elmi məqalələrim dərc olunub. Özümün 4 kitabım nəşr olunub. Bakı Qızlar Universitetinin tarix fakültəsini və həmin Universitetin magistraturasını bitirmişəm. 2006-2010-cu illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun dissertantı olmuşam. Hazırda ailə qurduğuma görə Kürdəmir rayonunda tarix müəllimi işləyirəm. Müxtəlif saytlarda hekayələrim dərc olunur. 44 Günlük vətən müharibəsində şəhid olmuş Əbülhəsən Eyvazov haqqında kiçik bir yazı hazırlamışam. Əgər imkanınız varsa xahiş edirəm onu öz qəzetinizdə yayımlaya bilərsinizmi? Yazını sizə göndərirəm. Xahiş edirəm əgər imkanınız varsa onu qəzetinizdə dərc edəsiniz. Mənim də Şəhidlərimiz üçün əlimdən gələn budur. Şəhidlərimiz üçün nə etsək azdır. Öncədən sizə təşəkkür edirəm. Və sizi qiyabi olsa da tanıdığıma şad oldum.*

**Hörmətlə, Günel Muxtarlı**

44 Günlük Vətən Müharibəsində Azərbaycan xalqının Mübariz, Polad qeyrətli oğulları öz canları, qanları bahasına torpaqlarımızı düşmən tapdağından azad edərək ərazi bütövlüyümüzü bərpa etdilər. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Avropa dövlətlərinin 30 ilə edə bilmədiklərini onlar 44 gün ərzində həyata keçirdilər. Azərbaycan tarixinə qəhrəmanlıq səlnaməsi yazdılar. Azərbaycanın 3 min nəfərə yaxın igid oğulları “Şəhidlər ölməz, vətən bölünməz”-deyərək ən uca zirvə olan “Şəhidlik” zirvəsinə ucaldılar. Əbülhəsən Balaş oğlu Eyvazov da o “müqəddəs zirvə”yə ucalan oğullarımızın arasında idi......

Əbülhəsən Balaş oğlu Eyvazov 1 noyabr 1996-cı ildə Kürdəmir rayonunun Mollakənd kəndində anadan olub. O, 9 aylıq olarkən ailəsi Bakı şəhərinə, Nardaran qəsəbəsinə, Xətai rayonu NZS qəsəbəsinə köçüb. 2003-cü ildə isə balaca Əbülhəsən Xətayi rayonunda 165 saylı məktəbin I sinfinə daxil olub. Öz tərbiyəsi, nümunəvi davranışı ilə öz yaşıdları arasında hər zaman seçilmişdir. Ailədə hamı onu əzizləyərək qısaca “Əbi” deyərək çağırırdılar. Əbülhəsən iki bacının bir qardaşı idi..

Orta məktəbi qurtardıqdan sonra 2014-cü ilin oktyabrında hərbi xidmətə çağrılmış və əsgərlikdə olduğu müddətdə də nizam -intizama riayət edərək seçilən əsgərlərdən olmuşdur.

Əbülhəsən Eyvazovun ürəyi hər zaman vətən, yurd sevgisi ilə döyünmüş və torpaqlarımızın düşmən tapdağı altında olması onu daima üzmüşdür. Bircə arzusu vardı Əbülhəsənin.. Torpaqlarımızı azad etmək və doğma Şuşamıza qayıtmaq....Üçrəngli Azərbaycan bayrağını işğal altında olan ərazilərimizdə yüksəklərə qaldırmaq....

Əbülhəsən 44 Günlük Vətən müharibəsində zəfərə aparan yolun başlanğıcını qoyan 2016-cı ilin Aprel döyüşlərində azğın düşmənlərlə qəhrəmancasına döyüşmüş və sağ salamat geri qayıtmışdır. Hətta fəxri fərmanla təltif olunmuşdur.

Kimsə başqa ölkələrə gedib orada yaşamaq haqqında danışanda bu Əbülhəsənə pis təsir edərdi. “Axı nə görmüsünüz xarici ölkələrdə, Azərbaycan torpağı bütün ölkələrdən gözəldi. Öz torpağımı başqa yerə dəyişmərəm”-deyirdi.. Əbülhəsən olduqca vətənpərvər oğul idi....

21 sentyabr 2020-ci ildə hərbi səfərbərlik elan olunanda o da, səfərbər olmuş və hərbi təlimlərdə fəal iştirak etmişdir.

Sentyabr ayının 27-də 44 günlük Vətən müharibəsi başladıqdan sonra Əbülhəsən döyüş meydanına atılmışdır. Füzulidə olarkən anasına zəng edərək sevinclə söyləmişdir: “Ana, bu yerlər o qədər gözəldir ki, müharibə qurtardıqdan sonra inşallah mən də torpaq alıb burada qalacağam”.

Sanki ürəyinə danmışdı ki, şəhidlik mərtəbəsinə yüksələcək. Onunla görüşə gedən atasına “Allah qoysa tezliklə qayıdacağam. Qayıtmasam vətən sağ olsun”-demişdi Əbülhəsən....

Uzun müddət telefon əlaqəsi kəsilmiş və dəfələrlə ailəsinə yaralı olması xəbəri gəlmişdi. Atası Balaş kişi cəbhə bölgəsinə gedərək oğlunu axtarmağa və ondan xəbər öyrənməyə çalışmışdı. Lakin bir ay Əbülhəsəndən heç bir xəbər əldə edə bilməmişdi.

Nəhayət, atası Balaş kişi Fizuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Əbülhəsəni tapa bilir. Əbülhəsənin ad gününə az qalmışdı. Atası evdə onun yolunu səbirsizliklə gözləyən ailəsinə zəng vuraraq “Əbini tapdım”-dedi. Bu şad xəbər bütün ailəni sevindirir. Ardınca isə “qardaşınız Şəhiddir”-söylədi....

Əbülhəsən Eyvazov 30 oktyabr 2020-ci ildə Suraxanı rayonunda Şəhidlər Xiyabanında dəfn olundu. Şəhidimiz Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə, ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunub. İstər Bakı şəhərində, istərsə



də Kürdəmir rayonunun müxtəlif məktəblərində sinif otaqlarına onun adı verilib. Onun doğulduğu Kürdəmir rayonu Mollakənd kəndində Q.Sadıqov adına tam orta məktəbdə tarix kabinetinə onun adı verilmiş və şəhidin döyüş yolundan bəhs edən foto-guşə yaradılmışdır. Mollakənd kəndində açılmış Şəhidlər bulağında onun da rəsmi əks olunub. Əbülhəsən Eyvazov bütün şəhidlərimiz kimi xalqımızın ürəyində daima yaşayacaqdır.

***Günel BİLALOVA,***
***şairə, yazıçı***